## *ZƏRİF ÜRƏKLİ MƏĞRUR QADINA*

*Ölüm hücuma keçdi,*

*Necə qəflət hücumdu?!*

*Gözlərə işıq verən*

*Niyə gözünü yumdu?*

Zərif ürəkliydi
O məğrur qadın
O, əziz qızını el əzizlədi.
O, igid Nüşabə,
O, Burla xatın
Xalqını işığa, nura səslədi.

Şəfəqli baxışlar bəzədi ömrü,
Sanki bir dünyalıq
Oldu təbəssüm.
Torpaqdan çiçək tək
Bitməkdən ötrü
Elə bil gözlərdə soldu təbəssüm.

Baxdı Azərbaycan,
Üzündə kədər,
Elə sızladı ki, qəlbinin başı...
Bulud göndərdi ki,
Doğma üfüqlər
Yağışa çevrilsin gözünün yaşı.

Çökdü çiyinlərə
Ağır-ağır dərd,
Vida ümmanının sahillərində
Neçə min insana
Ata olan ər
Sanki yetim qaldı yer üzərində.

Məhəbbət üstündə
Ucalır cahan,
Səadət yolları
İlk kəhkəşandır.
Qəhrəman oğulla qoşa adlayan
Özü də ən böyük bir qəhrəmandır!
Doğma el,
Doğma yurd
Onu gözlədi,
Osa ürəklərdə susmaz səs oldu.
Vəfasız yer onu
Udmaq istədi,
Vəfa günəşi tək
O, sönməz oldu!

Çıxsın duyğularım tanış yollara,
Dillənsin intizar ürəklər kimi.
Qoy bu misralarım
Təzə məzara
Səpilsin gecikmiş çiçəklər kimi.

***Nəbi Xəzri***

***16-17 may 1985-ci il***

***Zərifə xanım Əliyeva. – B. : 1998. – S.13***